BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 ***Humanitar elmlər seriyası*** ***2015***

UOT 94/479.24

MƏMMƏD SƏİD ORDUBADİNİN "QANLI İLLƏR" ƏSƏRİ TARİXİ MƏNBƏ KİMİ

SƏİDƏ ƏLİ QIZI
Bakı Dövlət Universiteti
Saida _alikizi@ mail .ru

Məqalə XX əsrin əvvəllərinin görkəmli Azərbaycan yazıçısı və publisisti Məmməd Səid Ordubadinin "Qanlı illər" adlı əsərinin tarixi mənbə kimi təhlilinə həsr olunmuşdur. Əsər konkret tarixi məlumarlar və faktlar əsasında yazılıb, 1905-1906-cı illərdə ermənilərin Cənubi Qafqaz ərazisində törətdikləri qanlı qırğınlardan bəhs edir.

Açar sözlər: qanlı, qırğın, milli, siyasət, erməni millətçiliyi

Azərbaycan tarixinin yeni və ən yeni dövrünün ibrətamiz problemləri hansılardır? – deyə bir sual meydana çıxsa, sözsüz və şəksiz ki, bu sualın cavabları içərisində ermənilərin XIX əsrin sonları – XX əsrin əvvəllərindən bu günümüzə qədər türk-müsəlmanlara və o cümlədən azərbaycanlılara qarşı törətdikləri soyqırımlar, qətliamlar, faciələr, xəyanətlər birinci yerdə duracaqdır. Tariximiz üçün bu qədər əhəmiyyətli və zəruri olan problemlər keçmiş sovet dönəmində ya ümumiyyətlə araşdırılmamış, ya da bir çox hallarda bu hadisələrin üstündən sükutla keçilmiş və ən yaxşı halda onlar guya tədqiq edilmişlər, əslində təhrif olunmuşlar. Bu gün biz həmin problemləri sovet ideologiyasının qurbanları sırasına aid etməliyik və bunları çox ciddi şəkildə, əlimizdə olan müxtəlif növlü, tipli, dilli mənbələr əsasında yenidən tədqiq etməli, öyrənməli, təbliğ və təşviq etməliyik, çünki zaman göstərir ki, hadisələr eyni şəkildə, lakin zamanın tələbinə uyğunlaşdırılmış yeni ssenarilərlə təkrar olunur. Gələcəkdə belə təkrarlanmaların qarşısını almaq üçün hadisələrin tarixi köklərini, mahiyyətini, səbəblərini, gedişini və nəticələrini bilməyimiz vacibdir. Bu baxımdan keçmişdə baş verən hadisələrdən bəhs edən, onları işıqlandıran, təsvir və təhlil edən tarixi və ədəbi əsərlərin tarixi mənbələr kimi əhəmiyyəti son dərəcə böyükdür.

XIX əsrin sonu – XX əsrin əvvəllərində yaşamış Azərbaycanın görkəmli yazıçısı, publisisti, ictimai xadimi Məmməd Səid Ordubadinin (1872-1950) yaradıcılığında Avropanın, Şərqin və Azərbaycanın tarixində baş vermiş bir çox

tarixi hadisələri özündə əks etdirən publisistik məqalələr, felyetonlar, tarixi kitablar, tarixi pyeslər və tarixi romanlar xüsusi yer tutur. Bunların içərisində "İki cocuğun Avropa səyahəti" (1908), "Bağı-şah, yaxud Tehran faciəsi" (1910), "Əndəlisin son günləri, yaxud Qrenadanın təslimi" (1914) tarixi pyesləri, "Qanlı sənələr" (1911) kitabı, "Bədbəxt milyonçu, yaxud Rzaqulu xan Firəngiməab" (1914), dördcildlik "Dumanlı Təbriz " (1933-1948), "Döyüşən şəhər" (1936), "Gizli Bakı" (1940), "Qılınc və qələm" (1946-1948) tarixi romanları həm bədii əsərlər kimi, həm də faktiki mənbələr və gercək tarixi faktlar əsasında yazıldığı üçün tarıxı mənbə kimi əhəmiyyətli olub, öyrənilməsinə və tarixi tədqiqatlara cəlb olunmasına ehtiyac vardır. M.S.Ordubadinin tarixi mövzulara marağı artıq onun ilk şeirlərində özünü göstərir. 1907-ci ildə nəşr olunan "Vətən və hürriyyət" adlı şeir kitabında o, Gəncəli qəhrəman Cavad xanın və Şimali Qafqaz dağlılarının milli qəhrəmanı Şeyx Şamilin rus çarizminin Qafqazda yeritdiyi işğalçılıq və müstəmləkəçilik siyasətinə qarşı mübarizəsini tərənnüm etmişdi.

M.S.Ordubadinin yaradıcılığa başladığı ilk illər Rusiya imperiyasının çətin, ictimai, iqtisadi və siyasi sarsıntılar dövrünə təsadüf edir. 1900-1903-cü illərin dünya iqtisadi böhranı və onun ağır nəticələri, 1904-1905-ci illərdə Rusyapon müharıbəsində Rusiyanın biabırçı məğlubiyyəti, bu hadisələrin bilavasitə təsiri ilə bütün imperiyanı əhatə edən I Rus inqilabının başlanması çar hakimiyyətini çıxılmaz vəziyyətə salmışdı. Mərkəzi Rusiyada başlanmış inqilabi hərəkat milli-müstəmləkə ucqarlarında da milli-azadlıq meyllərini gücləndirmiş və Rus çarizminin ciddi təşvişinə səbəb olmuşdu. Hadisələrin hansı məcrada inkişaf edəcəyini bilməyən, çaşqınlıq içərisində boğulmaqda olan çarizm özünün əsrlərlə milli azlıqlara qarşı yeritdiyi məkrli və iyrənc siyasətinə - ucqarlarda milli münaqişələr törətmək siyasətinə əl ataraq, Cənubi Qafqazda milli qırğınlara rəvac vermişdi.

Qeyd edək ki, məhz bu zaman - XIX əsrin sonu – XX əsrin əvvəllərində Osmanlı imperiyasının ərazisində də bir erməni dövləti yaratmaq xəyalları puça çıxan ermənilər kütləvi şəkildə Cənubi Qafqaza köçməyə başlamışdılar. XIX əsrin sonlarında Avropa dövlətlərinin dəstəyi və maddi yardımı ilə yaradılmış Daşnaksütyun, Hnçak və digər erməni təşkilatları ermənilərin bu əraazilərdə gələcəkdə böyük bir dövlət yaratmaq xülyalarını gerçəkləşdirmək üçün müxtəlif planlar işləyib hazırlayırdılar. Rusiyanın hakim dairələri bütün bunlardan xəbərdar idi. Hətta bəzi yüksək rütbəli çar məmurlarının bu məsələ ilə bağlı müəyyən narahatlıqları və tələşları var idi. Məsələn, X1X əsrin sonu – XX əsrin əvvəllərində bir sıra illər ərzində Türkiyənin şərqindəki müxtəlif şəhərlərdə Rusiyanın vitse-konsulu olmuş V.Mayevski özünün 1906-cı ildə yazdığı, 1908 və 1915-ci illərdə yeni əlavələr etdiyi "Qafqazda erməni-tatar nifaqı erməni məsələsinin mərhələlərindən biri kimi" adlı əsərində ermənilərin və onların gizli təşkilatlarının iç üzünü ifşa etmişdi.

Həmin əsər Birinci Dünya müharibəsinin ən qızğın çağında, erməni könüllü dəstələri Türkiyəyə qarşı döyüşlərdə iştirak etdiyi zaman Rusiya hərbi

rəhbərliyinə onların xəyanətkar və satqın təbiəti və siyasəti ilə bağlı bir xəbərdarlıq kimi yazılmışdı. V.Mayevski Daşnaksütyun və ona bənzər erməni təşkilatlarının əvvəl Asiya Türkiyəsində və daha sonra 1905-1906-cı illərdə Qafqazda törətdikləri vəhşiliklərdən bəhs edərək yazırdı: "... indi Qafqazda baş vermiş erməni-tatar qırğınlarının başlıca səbəblərini müəyyənləşdirərkən mən qəti əminəm ki, bunun günahkarları elə həmin gizli təşkilatlardır ki, "taleyin hökmü ilə" öz fəaliyyətlərini Qafqaz hüdudlarına da keçirmişlər. Buraya gəldikdən sonra da onlar dəyişmədilər və yenə əvvəlki kimi qaldılar... onları daxilən gəmirən müsəlmanlara qarşı nifrət hissi Cənubi Qafqazın bütün şərqini əhatə edən bir sıra qanlı toqquşmalarla asanlıqla həyata keçirildi" (1).

Lakin Cənubi Qafqazda xristian əhalinin həm sayının artması, həm də onun iqtisadi, sosial-siyasi mövqelərinin güclənməsi imperiyanın maraqlarına tamamilə uyğun gəlirdi. Odur ki, 1905-ci ilin yanvarında başlanmış Birinci Rus inqilabının ucqarlara yayılmasının qarşısını almaq, Rusiya imperiyasının neft hasilatı mərkəzi olan Bakıda tətillərin və nümayişlərin başlanmasına və genişlənməsinə mane olmaq üçün çarizm erməni amilindən istifadə etməyi məqsədəuyğun hesab edərək, ermənilərin əli ilə 1905-1906-cı illərdə Qafqazın türk-müsəlman əhalisinə qarşı qanlı qırğınlar törətmiş, minlərlə günahsız insanlar soyqırıma məruz qalmışdılar.

1905-ci ilin fevral ayının əvvəllərində Bakıda başlayan bu qırğınlar getdikcə Azərbaycanın, demək olar ki, bütün qəzalarını əhatə etmişdi. Hadisələr dövründə və ondan sonra ən çox təəccüb və təəssüf doğuran o idi ki, həm Qafqaz və Rusiya, həm də Avropa və hətta Amerika mətbuatı bu hadisələrin səbəblərini və mahiyyətini təhrif edir, ziddiyyətli və çaşdırıcı məlumatlar yayır, qırğınların azərbaycanlılar tərəfindən törədildiyini iddia edir, hadisələrin bütün günahını müsəlmanların, onların ziyalılarının və din xadimlərinin üzərinə atırdı.

1905-ci ilin əvvəllərində Qafqaz müsəlmanlarının hüquqi məsələlərinin qanunvericilik yolu ilə həll olunması məqsədilə ali hökumət idarələrinə ərz-hal təqdim etmək üçün Peterburqa gələn Azərbaycanın tanınmış ziyalıları Əhməd bəy Ağaoğlu və Əlimərdan bəy Topçubaşov Rus cəmiyyətində və mətbuatında Bakı hadisələri ətrafında aparılan mütəşəkkil böhtan və yalan kampaniyasından dəhşətə gəlmişdilər. Ə.Ağaoğlu Azərbaycan türklərinin adına, şərəf və ləyaqətinə, namusuna ləkə gətirən bu böhtanlara qarşı "Sankt-Peterburqskiye vedomosti" qəzetində "Bakı hadisələri haqqında həqiqət" adlı məqalə ilə çıxış edərək, Rusiya ictimaiyyətinə hadisələrin əsil səbəblərini və mahiyyətini çatdırmağa çalışmışdı (2). O, yazırdı: "Bakı qırğını ətrafında təşkil olunmuş təbliğat bütün gözlənilən hədləri aşıb keçmişdir. Yalnız bizim Rus mətbuatı deyil, əcnəbi mətbuat da hər gün ən qərəzli, ən kobud, misli-bərabəri görünməmiş məqalə və xəbərlərlə, "işıqlandıran" və "aydınlaşdıran" yazılarla doldurulur. Qanlı Bakı günlərinin bir neçə yüz bədbəxt qurbanının çəkdikləri əzablar və ölümləri haqqında deyilənləri cürbəcür şəkillərə salıb şitini çıxarırlar. Təbliğata rəhbərlik edən bacarıqlı əllər bütün vasitələrdən istifadə edir və nə yolla olursa

olsun, öz çirkin məqsədlərinə çatmağa can atırlar. Bu məqsəd nədən ibarətdir? Onun iki tərəfi vardır. Birincisi, bədbəxt hadisə ilə bağlı bütün məsuliyyəti yerli hökumətin üstünə yıxmaq, ikincisi isə guya qara camaatın ilk çağırışı ilə dərhal günahsız adamların üstünə atılıb onları öldürməyə, qarət etməyə və evlərini yandırmağa hazır olan yerli müsəlmanları başkəsənlər və soyğunçular kimi qələmə verməkdir" (3).

Həmin dövrdə birinci rus inqilabının təsiri ilə siyasi mübarizəyə qoşulmuş M.S.Ordubadi "Hümmət" sosial-demokrat təşkilatının tərkibində İranda başlanmış Məşrutə hərəkatına kömək göstərən qrupun fəal üzvlərindən biri idi. Bu qanlı hadisələr onun gözləri qarşısında baş vermişdi, M.S.Ordubadi bu hadisələrin canlı şahidi ıdı. İlk şeirlərində "Vətən və hürriyyət" deyən M.S.Ordubadi, təbii ki, bu olaylara, mətbuatda yayılan bu iftiralara, böhtanlara bir türk-müsəlman, bir ziyalı və publisist kimi biganə qala bilməzdi.

Və gələcək nəsillərə dərs olsun deyə, M.S.Ordubadi həmin hadisələri obyektiv şəkildə araşdıraraq "Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi)" adlı tarixi kitabını yazmışdır. Bu kitabda rus hakimiyyət dairələrinin təhriki ilə daşnak-erməni quldurlarının Bakıda, Gəncədə, Naxçıvanda, Qarabağda, Qazax qəzasında, Zəngəzurda, Göyçə ətrafında, Mehridə Azərbaycan xalqına qarşı törətdikləri soyqırım real faktlar və sənədlər əsasında qələmə alınmışdır.

Bu əsərin həmin hadisələri öyrənmək ücün tarixi mənbə kimi təhlilinə keçməzdən əvvəl onun necə yaranmasına diqqəti çəkmək istərdik. Müəllif bu haqda yazır: "Bunu da hamı bilməlidir ki, dəfələrlə "İrşad" və "Tazə həyat" qəzetləri vasitəsi ilə ətraf müxbirlərdən məlumat tələb etdiyim vaxt qərəzsiz və bitərəfanə bir şəkildə yazmalarını təmənna etmişdim. Yenə məlumat almaq arzusu ilə mühərrirlərə, qələm sahiblərinə məxsusi məktublar göndərib, iğtişaş günlərində məhəlli hökumətin hər iki tərəf barəsindəki rəftarını soruşmuşdum. Mən çox fəxr edirəm ki, hər cür fitnəkar məqsədlərdən uzaq, hər növ şəxsi-qərəzdən kənar olan məktublar alıb bu məcmuədə dərc etdim"(4).

M.S.Ordubadinin mətbuat vasitəsilə müraciətindən sonra ona 245 məktub yetişmiş və bu məktublar saf-cürük edilərək, məzmununa xələl yetirilmədən, yalnız tarixin və yazıçının üslubuna müvafiq bir dilə çevrilmişdir (4). Müəllif əsərini iki il ərzində ərsəyə gətirmişdi.

Əsər ilk dəfə "Qanlı sənələr" adı ilə 1911-ci ildə Azərbaycan burjuaziyasının görkəmli nümayəndəsi Ağa Murtuza Muxtarov tərəfindən nəşr olunmuş və yayılmışdı (4, 5).

M.S.Ordubadinin bu qanlı, ağrılı, faciəli hadisələri necə hiss və həyəcanla yazdığı onun özü tərəfindən belə qələmə alınmışdı: "Bu olmuş tarixi vücuda gətirmək üzrə qələmi əlimə aldığım zaman özümdə bir kədər, bir müsibət xatirələri hiss edirəm. ...Əlimdəki qələm hər zaman qanlı illərdə baş verən faciələri yazmaq istəyir, vicdanım da bu ülvi vəzifəni ifa etməkdə qeyri-adi bir həvəs göstərir. Zəif duyğularıma gəldikdə qanlı illərdə ucalmış fəryad və məzlumların maddi və mənəvi təsirindən irəli gələn, dözülməsi mümkün

olmayan bir hala təsadüf edib özünü böyləcə davamdan məhrum buraxır. Hər halda tarixi qələmə almağa cəsarət edib ***bəşər dünyasının hər nöqtəsinə qəm dağı olan*** bu sadə əsərimi yaradıb meydana çıxarıram. ... Daha doğrusu, iki millət arasında baş verən faciələri yazmaqla vətən övladlarına keçmiş müsibətlərdən ***bir ibrət yadigarı kimi bir parça vətən fəryadnaməsi vücuda gətirdim"*** (4, 5, 6) (kursiv bizimdir – S.Ə.).

M.S. Ordubadi sözünə davam edərək yazır ki, onun bu əsəri yazmaqda məqsədi müsəlman və ermənilərin iki il ərzində törətdikləri səhv və xətaları söyləməkdir (4, 7).

M.S.Ordubadi topladığı faktlar və məlumatlar əsasında hadisələrin 4 səbəbini müəyyənləşdirir. Onun fikrincə, bu səbəblərin içərisində birinci yerdə Daşnaksütyun partiyasının fəaliyyəti dururdu. O, yazır: "Birinci səbəb erməni Daşnaksütyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdiyidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynandı.

...2-ci səbəb məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. Böyük Rusiya inqilabına görə mərkəzi hökumətin başı özünə qarışdığından xırda məmurlar özbaşınalığa üz qoyub erməni-müsəlman iğtişaşlarının sakitləşməsi üçün bir tədbirdə bulunmadılar. Bulundularsa da, ermənilərin terrorları qorxusundan bir tərəfi əldə saxlayıb, digər tərəfə növbənöv vicdansızlıqlar etməkdə idilər "(4, 8).

M.S.Ordubadi hadisələrin üçüncü səbəbi kimi müsəlmanların elmsizliyini və müasir işlərdən bixəbər olmalarını göstərir və yazır ki, Bakı faciəsindən sonra erməni-müsəlman hadisələrinin bu qədər uzanmasına səbəb müsəlmanların elmsizliyidir, digər bir səbəb var isə, o da müsəlmanların silahsiz və müasir işlərdən xəbərsizliyidir (4, 9).

Müəllif daha sonra yazır: "Dördüncü səbəbə gəldikdə isə ermənilərin avtonomiya – idarə muxtariyyəti həvəsində olmalarıdır. Bu səbəbiyyəti isbat etmək üçün qələmə bir o qədər güc sərf etmək lazım deyil. Zira, ermənilərin hər aybaşı Londona, Parisə, Amerikaya qaçıb ərzi-hal etmələri bunlara kamil bir sübutdur. İngiltərənin verdiyi proqrama uyğun olaraq Türkiyədə muxtariyyət idarə həvəsində bir xeyli çalışdılar. Nəhayət, erməni qırğını Sasun, Zeytun, Van faciələri düşəndən sonra İngiltərəyə bir də müraciət etməyə məcbur oldular. İngiltərə isə son dəfə olaraq "Britaniyanın hərbi gəmiləri Türkiyənin Anadolu dağlarında cövlandan acizdir, nə yapayım," – deməklə ermənilər Türkiyədə idarə muxtariyyəti həvəsindən bir növ düşürdü. İngiltərədən naümid olan ermənilər qırğından sonra katalikos Mkrtıç cənablarını Berlinə, yəni Almaniyaya göndərməyə məcbur oldular. Mkrtıç cənabları Almaniya kabinəsindən "indi qılınc zamanıdır" sifarişini ermənilərə yetirən kimi ermənilər Türkiyədə münəzzəm bir Daşnaksütyun partiyası təşkil və tənzim etdilər" (4, 10). M.S.Ordubadi qeyd edir ki, Türkiyə hökumətinin Daşnaksütyunun fəaliyyətinə rəvac vermədiyini və ermənilərin planlarının Türkiyədə həyata keçirilməsinin mümkünsüzlüyünü görən ermənilər Qafqaza daşınmağa başladılar. Məqsədləri ermənilərlə müsəlmanları müharibəyə cəlb edib bir-birindən ayırmaq, Bakı qu-

berniyasını və Gəncə quberniyasının aran yerlərini müsəlmanlara verib, İrəvan quberniyasını, Gəncə quberniyasının yaylaq və dağbasar ölkələrini ermənilərə verib, bunları da Qars sancağı ilə birləşdirib Erməni səltənəti təşkil etmək idi (4, 11).

Yeri gəlmişkən, digər bir tanınmış azərbaycanlı publisist Mirzə Bala Məmmədzadə özünün 1927-ci ildə İstanbulda nəşr olunmuş "Ermənilər və İran" adlı əsərində yazır: "1905-ci il sənəsində Azərbaycan türkləri arasında bu surətlə vücuda gətirilən... qətliam haqqında o zamanın Qafqaziya valiümumisi və erməni tərəfdarlığı ilə məruf knyaz Vorontsov-Daşkov Rusiya imperatoruna yazırdı ki, "Daşnaksütyun firqəsinin bu hərəkəti sırf ermənilərdən ibarət bir erməni ərazisi vücuda gətirmək qayəsini istehdaf edir. Bununla da müstəqbil Ermənistan avtonomiyası üçün iyi bir zəmin hazırlamaq istəyir" (15).

M.S.Ordubadi 1905-1906-cı illərin hadisələrinin səbəblərini və məqsədlərini aydınlaşdırdıqdan sonra əlində olan 245 məktub və 400-dən artıq məlumat əsasında ayrı-ayrı qəzalarda - Bakıda, Naxçıvanda, İrəvanda, Cəbrayılda və Qaryagində, Şuşada, Cavanşirdə, Gəncədə, Tiflisdə, Qazaxda, Zəngəzurda baş vermiş qanlı qırğınların, həmçinin 1906-cı ilin fevralında Qafqaz canişini Vorontsov-Daşkovun təşəbbüsü ilə çağırılmış Tiflis "barışdırıcı" qurultayının gedişini və nəticələrini təfərrüatı ilə təsvir edir.

Müəllif yazır ki, 1905-ci ilin fevral ayının 6-da başlanmış qanlı Bakı hadisələri ərəfəsində ermənilər müsəlmanlar əleyhinə qiyam fikrinə düşüb müxtəlif təşəbbüslərdə bulunurdular. Məhəlli hökumət isə bir sıra yüngül cinayətlərlə baş girləsə də, belə mühüm işlərin qabağını almaq kimi əməllərdən uzaq idi. Ermənilərin bəzi hərəkətləri müsəlmanları duyuq salmışdı və onlar " əsas müdafiəni əldən buraxmayıb ayıq dolanırdılar" (6, 12). Fevralın 2-də Ağarza adlı bir müsəlmanın Quba meydanında erməni komitəsi tərəfindən qətlə yetirilməsi, daha sonra başqa bir müsəlman məhbusun istintaq üçün aparılarkən yolda erməni əsgəri tərəfindən öldürülməsi xəbəri Bakıda bir bomba kimi partladı və bütün Qafqaz aləmi bu bombanın təsir şiddətindən yanıb yaxıldı (4, 12,13). Fevralın 6-dan başlayan atışmalar, qətllər, yanğınlar, dağıntılar, bir sözlə bu qanlı faciə ayın 10-na qədər davam etdi.

Hadisələr təkcə Bakını deyil, Bakıətrafı əraziləri də əhatə etmişdi, "Bu növ ilə Bakının hər tərəfində şiddətli qətl-qarət və atışma başlanıb ayın 10-na qədər ardı-arası kəsilmədən cinayətlər baş verirdi. Balaxanıda neft zavodlarında iğtişaş hökm-fərma olub yanğın əməli də şiddət tapmaqda idi. Ancaq Balaxanıda iğtişaşda iştirak edən bir çox ermənilər olub, bir çox da müsəlman fəhlələri hərbə, qətl-qarətə başlamaq istərdilər. Fəqət, müsəlman başçıları iğtişaşın qabağını alıb, ermənileri və sair millətdən olan fəhlələri hifz və himayə edər idi" (4, 16). Müəllif ermənilərin törətdiyi bu qanlı cinayətlərə baxmayaraq, müsəlmanların hadisələrin gedişində bir çox ermənileri, onların ailələrini öz evlərində gizlətdiyinə, qoruduğuna, yemək-içməklə təmin etdiyinə dair erməni məktublarının daxil olmasından da bəhs edir. O, yazır: "Amma burasını da deməliyəm ki, müsəlmanlar insafı əldən buraxmayaraq hər tərəfdə ermənileri

hifz edir, evlərində saxlayıb yemək-içməklərini verirdilər. Bu barədə ermənilərin özləri məktub vasitəsilə razılıq etmişdilər. ...Küçələrdə o tərəf bu tərəflərdə qan tökən ermənilər isə ələ keçirdikləri əlsiz-ayaqsız müsəlmanları qırıb-kəsməkdə idilər. Müsəlman övrətləri... erməni qorxusundan titrəyib, cocuğunu unudurdu. Fəqət yenə bu əzəmətli bacılar kişilərinə qoşulub min il bir vətəndə yaşadıqları ermənileri himayət edirdilər, Buna şahıd üç nəfər müsəlman övrətinin əlli nəfər ermənini hifz etməsidir ki, dörd gün müddəti bunların cümləsini yeməklə doyurmuşdur" (6, 15).

Müəllif yazır ki, fevralın 6-dan 10-na qədər davam edən şiddətli müharibə nəticəsində erməni və müsəlmandan tələfat min nəfər olmasa da, mal və zəruri əmlaka dəyən zərər milyonları keçməkdə idi (6, 17).

Ermənilər büsbütün Bakıda məğlub olub fəlakətə uğradılar. Bundan sonra, may ayının əvvəllərindən etibarən qətliamları Naxçıvanın ərazisinə keçirdilər. Müharibə vaxtı polis qulluqçusu Angil qətllərə mane olmayıb, əksinə, könüllü cavanları cinayətə təşviq edirdi. Müəllifin məlumatına əsasən Çeşmə-Basar və Cəhri kəndlərindəki qırğınlar daha dəhşətli olmuşdu (6, 20-22).

Kitabın "İrəvan hadisələri" adlanan fəslində müəllif 1905-ci il may ayının 23-dən başlayaraq iyun ayının 4-nə qədər İrəvanın ərazisində ermənilərin törətdikləri qırğınlardan bəhs edir, xüsusilə İrəvanın şərqində yerləşən və 20 evdən ibarət olan Gözəcik kəndində baş vermiş faciəni, kəndin sakini Novruz kişinin qəhrəmanlığını, təkbaşına ermənilərə qarşı vuruşmasını və faciəli ölümünü təsvir edir (6, 23-32). Bunun ardınca Şuşada, Tiflisdə, Zəngəzurda və digər yerlərdəki qanlı qırğınları şahidlərin məlumatları əsasında ətraflı və obyektiv şəkildə qələmə alır (21).

Odur ki, M.S.Ordubadinin "Qanlı illər" əsəri həqiqətən də o qanlı illərin bir xatirə kitabı və tarixi abidəsidir. Əsərin tarixi mənbə kimi əhəmiyyəti də məhz bundadır və onun tarixi tədqiqatlara cəlb olunması zəruridir, çünki bir çox hallarda başqa mənbələrdə olmayan məlumatları özündə əks etdirir.

ƏDƏBİYYAT

1. Маевский В. Ф. Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса». Bakı: 1993, s. 27.
2. «Санкт-Петербургские ведомости», 21-22 апреля 1905 год.
3. Əhməd bəy Ağaoğlu. Seçilmiş əsərləri. Bakı: 2007, s. 339.
4. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı: 1991.
5. Mirzə Bala Məmmədzadə. Ermənilər və İran. Bakı: 1993, s. 28-29.
6. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. S.12.

ПРОИЗВЕДЕНИЕ М.С.ОРДУБАДИ «КРОВАВЫЕ ГОДЫ» КАК ИСТОРИЧЕСКИЙ ИСТОЧНИК

САИДА АЛИ КЫЗЫ

РЕЗЮМЕ

Статья посвящена источниковедческому анализу книги видного писателя и публициста Азербайджана начала XX века М.С.Ордубади «Кровавые годы», которая написана на основе конкретных исторических фактов и описывает кровавые события 1905-1906 годов, учиненные армянами на территории Южного Кавказа.

Ключевые слова: кровавые, резня, национальная, политика, армянский национализм

THE BOOK “BLOODY YEARS” BY M.S.ORDUBADI AS A HISTORICAL SOURCE

SAIDA ALI GIZI

SUMMARY

The article is devoted to the original analysis of the book “ Bloody Years” by the prominent writer and publicist of Azerbaijan – M.S. Ordubadi early in the XX century. The book is written on the bases of real historical events of 1905-1906 caused by the Armenians on the territory of Southern Caucasus.

Key words: bloody, massacre, national, political, Armenian nationalism